# OXŞAR
***(Peterburq poeması)***

## I

Səhər saat səkkizə az qalmış titulyar sovetniki Yakov Petroviç Qolyadkin uzun sürən yuxudan ayıldı, əsnədi, gərnəşdi və nəhayət, gözlərini tamamilə açdı. Bununla belə, iki dəqiqəyə qədər hərəkətsiz və uzanıqlı halda yatağında qaldı, o hələ ayıqmı, yoxsa yuxudamı olduğuna, ətrafında baş verənlərin oyaq vəziyyətdəmi və həqiqətənmi baş verdiyinə, yoxsa onun yuxulu vəziyyətdəki qarma-qarışıq röyalarımı olduğuna tamamilə əmin deyildi. Lakin cənab Qolyadkinin duyğuları tez bir zamanda aydınlaşmağa və adətən olduğu kimi adi təəssüratlar şəklini almağa başladı. Onun kiçicik otağının yaşılımtıl-kirlitəhər, his-pas basmış tozlu divarları, qırmızı ağacdan düzəldilmiş komodu, qırmızı ağac rənginə boyadılmış stulları və masası, qırmızıtəhər rəngə çalan, ya-

şıl gülləri olan dama-dama türk divanı və nəhayət, dünən tələm-tələsik çıxarıb bükülü halda divanın üstünə tulladığı paltarı ona tanış gəldi. Nəhayət, boz-bulanıq və çirkli payız günü tutqun pəncərədən onun otağına elə acıqlı və elə turşməcaz halda baxdı ki, cənab Qolyadkin artıq heç cür şübhə edə bilmədi ki, o, dünyanın o başındakı hansısa məmləkətdə deyil, məhz Peterburq şəhərində, paytaxtda, Şestilavoçnaya küçəsində, kifayət qədər böyük, əsaslı bir evin dördüncü mərtəbəsində, öz şəxsi mənzilindədir. Belə bir vacib kəşfdən sonra cənab Qolyadkin sanki özünün bayaqkı röyası barədə təəssüflənərək və onu heç olmasa bir dəqiqəliyinə də olsa, geri qaytarmağa çalışaraq təlaş içində gözlərini yumdu. Amma bir dəqiqədən sonra, yəqin, onun dalğın, qaydasız fikirləri, nəhayət, həmin o ideyanın üstünə gəldi və o bir sıçrayışla yataqdan durdu. Yataqdan atılaraq elə o saatdaca komodun üstündəki kiçicik, dəyirmi güzgünün qabağına qaçdı. Hərçənd güzgüdə gördüyü bu yuxulu, koruş və kifayət qədər keçəlləşmiş sima məhz elə vecsiz sifətlərdən idi ki, ilk baxışdan heç kəsin diqqətini xüsusi olaraq cəlb edə bilməzdi, lakin bu simanın yiyəsi, deyəsən, güzgüdə gördüklərindən tamamilə razı qaldı. “Bax bu, əngəl olardı, – cənab Qolyadkin astadan dedi, – əgər mən bu gün nəyləsə biabır olsaydım, məsələn, nəsə lazımi qaydada olmasaydım, – hansısa kənar bir sızanaq çıxmış olsaydı, ya da nəsə başqa bir xoşagəlməz hadisə baş versəydi, bax bu, əngəl olardı; bununla belə, pis deyil; hələlik hər

şey yaxşı gedir". Hər şeyin yaxşı getməsinə son dərəcə sevinərək, cənab Qolyadkin güzgünü əvvəlki yerinə qoydu, ayaqyalın və adəti üzrə, gecə paltarında pəncərənin qabağına qaçdı, böyük canfəşanlıqla evin həyətində gözləriylə nəyisə axtardı. Deyəsən, həyətdə gördüyü şey onu tamamilə qane etdi; özündənrazı bir təbəssüm onun sifətini işıqlandırdı. Sonra əvvəlcə arakəsmənin arxasına, öz otaq qulluqçusu Petruşkanın komasına nəzər salıb və əmin olaraq ki, Petruşka orada yoxdur, ayaqlarının ucunda masaya yaxınlaşdı, siyirmələrdən birini açarla açdı, əliylə onun uzaq küncündə nəyisə axtardı, nəhayət, köhnə, saralmış kağızların və hansısa şey-şüylərin altından yaşıl rəngli, sürtülüb köhnəlmiş pul kisəsini çıxartdı, onu ehtiyatla açdı, onun ən axırıncı, gizli cibinə ehmallıca və ləzzətlə nəzər saldı. Yəqin ki, yaşıl, boz, göy, qırmızı və müxtəlif rəngli əsginaslardan ibarət pul dəsti də kifayət qədər mehribancasına və razılıqla cənab Qolyadkinə sarı boylandı: o gülümsünərək açıq pul kisəsini qarşısına, masanın üstünə qoydu və şiddətli bir məmnunluq əlaməti olaraq əllərini bərk-bərk ovuşdurdu. Nəhayət, onu, özünün o dövlət əsginaslarından ibarət fərəhləndirici pul dəstini çıxartdı və bununla belə, artıq dünəndən bəri yüzüncü dəfədir ki, saydığı pulları böyük və şəhadət barmaqları arasında diqqətlə sürtə-sürtə yenidən saymağa başladı. "Kağız pulla yeddi yüz əlli rubl! – deyə, nəhayət, pıçıldadı. – Yeddi yüz əlli rubl… böyük məbləğdir! Bu, xoşagələn məbləğdir, – deyə o, pul dəstini əllərində bərk-

bərk sıxaraq və mənalı-mənalı gülümsünərək, məmnunluqdan bir qədər zəifləmiş səslə davam etdi, – bu, kifayət qədər böyük məbləğdir! Kim üçün desən, böyük məbləğdir! İndi elə bir adam görmək istərdim ki, onunçün bu məbləğ cüzi bir məbləğ olsun. Belə bir məbləğ adamı çox uzaqlara apara bilər...”

“Bununla belə, bu nədir? – deyə cənab Qolyadkin düşündü, – bəs bu Petruşka harada qaldı?” Hələ də həmin paltarda o, bir daha arakəsmənin arxasına boylandı. Petruşka yenə də yox idi, orada isə yalnız döşəmənin üstündəki açıqlanmış, qızışmış və özündən çıxmış samovar daim daşacağı ilə hədələyərək, fısıldaya-fısıldaya, tez-tez özünün anlaşılmaz dilində nəsə donquldayırdı, yəqin, demək istəyirdi ki, ey insanlar, məni götürün, axı mən tamamilə qaynamışam və hazıram.

“Lənət şeytana! – deyə cənab Qolyadkin fikirləşdi. – Axı bu tənbəl cüvəllağı adamı lap özündən çıxara bilər; görəsən, haralarda veyillənir?” O haqlı olaraq hirsli halda balaca bir dəhlizdən ibarət olan girəcəyə çıxdı; bu dəhlizin də qurtaracağında çöldən girəcəyə qapı açılırdı, bu qapını bircə qırıq araladı və öz xidmətçisini nökərlərdən, ev qulluqçularından və təsadüfi avara-uvaralardan ibarət böyük bir dəstənin əhatəsində gördü. Petruşka nəsə danışır, qalanları isə qulaq asırdılar. Deyəsən, söhbətin nə mövzusu, nə də özü cənab Qolyadkinin xoşuna gəlmədi. O, dərhal Petruşkanı səslədi və tamamilə narazı və dilxor halda otağa qayıtdı.

“Bu cüvəllağı adamı, ələlxüsus da öz ağasını qara qəpiyə satmağa hazırdır, – deyə Qolyadkin öz-özünə düşündü, – elə satıb da, hökmən satıb, mərc gəlirəm ki, bir qəpiyə satıb. Hə, nədir?..”

– Cənab, livreyanı gətiriblər.

– Geyin və bura gəl.

Petruşka livreyanı geyinib, axmaq-axmaq gülümsəyərək otağa, ağasının yanına gəldi. O, son dərəcə əcaib bir görkəmdəydi. Onun əynindəki yaşıl rəngli, çox nimdaş, qızıl güləbətinləri tökülmüş və yəqin ki, Petruşkadan bir arşın uca olan bir adam üçün tikilmiş bir nökər livreyası idi. Onun əlində güləbətinli və yaşıl lələkli şlyapa, belində isə dəri qında nökər qılıncı vardı.

Nəhayət, mənzərənin tamlığı üçün Petruşka daim yüngül ev paltarında gəzmək kimi özünün sevimli adətinə sadiq qalaraq, indi də ayaqyalın idi. Cənab Qolyadkin Petruşkanı hərtərəfli nəzərdən keçirdi və deyəsən, razı qaldı. Yəqin ki, livreya hansısa təmtəraqlı bir hadisə münasibətilə kirayəyə götürülmüşdü. O da gözə dəyirdi ki, Qolyadkin onu nəzərdən keçirəndə Petruşka nəsə qəribə bir intizar içində ağasına baxır və qeyri-adi bir maraqla onun bütün hərəkətlərinə göz qoyurdu ki, bu da cənab Qolyadkini pərt edirdi.

– Hə, bəs karet?

– Karet də gəlib.

– Bütün gün üçün?

– Bütün gün üçün. Kağız pulla iyirmi beş rubla.

– Bəs çəkmələri necə, gətiriblər?

– Çəkmələri də gətiriblər.

– Qanmaz! Deyə bilmirsən, bəli, gətiriblər? Gətir onları bura.

Çəkmələr ayağına yaxşı olduğuna görə cənab Qolyadkin öz məmnunluğunu bildirərək, çay içmək, yuyunmaq və üzünü qırxmaq istədi. O, kifayət qədər diqqətlə üzünü qırxdı, eynilə diqqətlə yuyundu, tələm-tələsik çaydan bir-iki qurtum içib əsas məsələyə keçdi – geyinməyə başladı: demək olar ki, tamamilə təzə şalvar geydi; sonra bürünc düyməli döşlük, kifayət qədər açıqrəngli və qəşəng, güllü jilet geydi; boynuna ala-bəzək ipək qalstuk bağladı və nəhayət, təptəzə və tərtəmiz vismundirini geydi. Geyinə-geyinə dəqiqəbaşı gah bir, gah da digər ayağını bir qədər yuxarı qaldıraraq, bir neçə dəfə sevincək halda çəkmələrini nəzərdən keçirdi, onların biçimindən xoşhal oldu və öz fikrinə ifadəli bir mimikayla göz vuraraq, burnunun altında nəsə donquldadı. Bununla belə, bu səhər cənab Qolyadkin xeyli dalğın idi, çünki onu geyindirən Petruşkanın ona aid olan qımışmasını və üz-göz hərəkətlərini, demək olar ki, görmürdü… Nəhayət, lazım olan işlərin hamısını gördükdən və geyinib qurtardıqdan sonra cənab Qolyadkin pul kisəsini cibinə qoydu, çəkmələrini geymiş və beləliklə də, tamamilə hazır vəziyyətdə olan Petruşkaya bir daha diqqətlə nəzər saldı və əmin olaraq ki, hər şey qaydasındadır və artıq gözləməyə lüzum yoxdur, tələm-tələsik, təlaş içində və yüngülcə ürək